BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4* *Təbiət elmləri seriyası* **2015**

**UOT: 911.3 ; 338.48 ; 379.85**

# LƏNKƏRAN-ASTARA İQTİSADİ-COĞRAFİ RAYONUNDA TURİZMİN İNKİŞAFINA TƏSİR EDƏN İNVESTİSİYALAR

**S.Ə.TALIBOV**
***Bakı Dövlət Universiteti***
***patriotalibov@hotmail.com***

*Məqalədə Azərbaycanın Lənkəran-Astara iqtisadi-coğrafi rayonu üzrə turizmə investisiya qoyuluşu məsələləri araşdırılmışdır. İqtisadi rayonun ümumi xərclərinin Dövlət Büdcəsindən asılılığı müəyyən olunmuşdur. Azərbaycanda turizm sahəsinə xarici və daxili investisiyaların qoyulma mexanizmi açıqlanır, qoyulan investisiyaların birbaşa və ya dolayısı ilə Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda turizmin inkişafına təsiri araşdırılır.*

**Açar sözlər:** turizm, regional turizm, investisiya, xarici investisiya, daxili investisiya

**Tədqiqatın aktuallığı:** İstənilən sahənin, o cümlədən də turizmin inkişafı bu sahəyə qoyulan investisiyalardan birbaşa asılıdır. İnvestisiya qoyuluşunun artımı turizm sənayesinin inkişafı ilə düz mütənasib asılılığa malikdir. Ona görə də sahəyə investisiya qoyuluşu mənzərəsini öyrənmək, investisiyanın hansı istiqamət və mənbələrdən daxil olduğunu dəqiqləşdirmək, yeni maliyyələşdirmə resurslarını axtarmaq istiqamətində tədqiqatlar öz aktuallığı ilə seçilir. Azərbaycanda turizm sənayesinə investisiyalar qoyuluşunun spesifik xüsusiyyətləri vardır. Ölkə təcrübəsini araşdırmaq, ümumiyyətlə, turizmə investisiya qoyuluşu məsələlərinin həm nəzəri, həm də praktik baxımdan tədqiqatı aktual mövzudur.

**Tədqiqatın məqsədi:** Son zamanlar dünyanın bir çox turizm cəhətdən inkişaf etmiş ölkələrində investisiya siyasətini, iqtisadi inkişaf strategiyasının tərkib hissəsi kimi qiymətləndirirlər. Ayrılıqda götürülmüş bir ölkə, eləcə də bu ölkənin regionları üzrə turizmin inkişafı məsələsi, turizmə birbaşa və ya dolayısı ilə qoyulan investisiyalardan asılıdır. Azərbaycanın Lənkəran-Astara iqtisadi-coğrafi rayonu üzrə investisiya qoyuluşlarının bu regionda turizmə təsir mexanizmini aydınlaşdırmaq, regionun inkişafına yeni imkanlar açacaqdır. Bu məqsədlə Azərbaycanda turizmə yönələn investisiyanın müxtəlif mənbələrdən cəlb olunması imkanlarını və bu imkanlardan bilavasitə turizmin inkişafı üçün istifadə xüsusiyyətlərini açmaq vacib hesab olunur. Həmçinin

iqtisadi-coğrafi rayonun turizminə təsir edən investisiyaların mənbələri araşdırılmaq məqsədilə daxili investisiya mənbələri təhlil olunmalıdır.

**Nəzəri əsasları:** Hər hansı bir dönəmdə iqtisadiyyatda istehsal edilən məhsulun yeni quruluşlar, yeni dayanıqlı təchizat və inventardakı dəyişmələr şəklindəki qisminin dəyərinə investisiya deyilir [7]. İnvestisiya, gələcəkdəki istehlakı artıra bilmək məqsədilə bugünkü istehlakı qısmağı lazımlı qalmaqdadır [10]. Ümumiyyətlə, investisiya (investisiya resursları) dedikdə, pul gəlirləri, məqsədli bank vəsaitləri, paylar, səhm, digər qiymətli kağızlar, texnologiyalar, maşın və avadanlıqlar, lisenziyalar (o cümlədən əmtəə nişanları olan), kreditlər, digər əmlak və əmlak hüquqları, sahibkarlıq fəaliyyətinə, digər fəaliyyət növlərinə qoyulan intelektual sərvətlər və müsbət iqtisadi və sosial nəticələrə nail olmaq məqsədlərini başa düşürük [4]. Ümumi olaraq investisiyaları aşağıdakı şəkildə təsnif etmək mümkündür:

-Etüd-proyekt investisiyaları;
-Yeni investisiyalar;
-Fəaliyyəti davam etdirmə və yeniləmə investisiyaları;
-Ekspansiya investisiyaları;
-Tamamlama və çətin situasiyaları aşmaq üçün ekstremal investisiyalar;
-Modernləşdirmə və təkmilləşdirmə investisiyaları;
-Araşdırma-inkişaf etdirmə investisiyaları.

Turizm sahəsinin inkişafına birbaşa və ya dolayısı ilə təsir edən investisiyaların mənbələrini iki əsas istiqamətə ayırmaq olar: 1) xarici investisiyalar; 2) daxili investisiyalar. Xarici investisiya, bir ölkənin qarşılığını müxtəlif formalarda gələcəkdə ödəmək üzrə, başqa ölkələrdən təmin edərək qısa müddətdə iqtisadi gücünə əlavə edə biləcəyi maliyə və ya texnoloji mənbələr olaraq tərif edilməkdədir [8]. Bu baxımdan Azərbaycanda da turizmə investisiya qoyuluşu istisna təşkil etmir.




**Şək. 1.** Azərbaycan Respublikasında turizm sahəsinin inkişafına birbaşa və ya dolayısı ilə təsir edən investisiyaların mənbələri.

**Müasir vəziyyət:** Hazırda ölkədə iqtisadi islahatların davam etdirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması, neft sektoru ilə bərabər, qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının iqtisadiyyatına investisiyaların cəlb olunması məqsədilə hökumət tərəfindən “açıq qapı” siyasəti həyata keçirilir. Son illərdə Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası prosesi intensiv xarakter almışdır. Xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi Azərbaycan dövlətinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Son dövrlər ölkədəki siyasi sabitlik və iqtisadi inkişaf xarici dövlətlərin Azərbaycan iqtisadiyyatına uzunmüddətli investisiya qoymaq üçün marağını daha da artırmışdır. Bu səbəbdən də xarici investorlar Azərbaycanda həm neft sektoruna, həm də qeyri-neft sektoruna investisiyalar qoyular. Qeyri-neft sektorunda fəaliyyət göstərən birgə və xarici investisiyalı müəssisələri cəlb edən əsas sahələr sənaye, tikinti, nəqliyyat və ticarətdir. Lakin təəssüfləndirici haldır ki, Azərbaycanda mövcud olan turizm potensialı ilə müqayisədə, xarici investisiya qoyulan sahələrin içərisində turizm sektoru yoxdur. Son məlumatlara əsasən qeyri-turizm sektorlarına qoyulan xarici investisiyanın artımı dövründə ölkəyə səyahət etmiş xarici turistlərin sayında da artıma əsas vermişdir. Bu isə qeyri-turizm sektoruna qoyulan investisiyaların dolayısı ilə turizm sektoruna da təsir etməsindən irəli gəlir. Məlum olmuşdur ki, investisiyalar artdıqca ölkəyə gələn turistlərin sayında da artım baş vermişdir (bax şəkil 2). Artım investisiya qoyuluşu mənzərəsinə təsir göstərmişdir.




**Şək. 2.** Ölkə iqtisadiyyatına yönələn daxili, xarici investisiyaların və ölkəyə səfər edən turistlərin inkişaf dinamikası.

Yəni regiona gələn xarici turistlərin sayının artması sahibkarların investisiya qoyuluşuna marağını yüksəltmişdir. Lənkəran-Astara iqtisadi-coğrafi rayonuna yönələn xarici investisiyalar əsasən Dünya Bankı və Asiya İnkişaf

Bankı tərəfindən mövcud nəqliyyat infrastrukturuna, Su Təchizatı və Kanalizasiya Sistemlərinin Tikintisinə istiqamətlənmişdir. Bu sektorlar da turizm üçün çox əhəmiyyətli sahələridir və dolayısı ilə turizmə təsir edir.

Azərbaycan Respublikasında turizmin inkişafı, bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi qarşıdakı illərdə prioritet istiqamətlərdəndir. Turizmi iqtisadiyyatın yüksək gəlirli sahəsinə çevirmək, sosial və ekoloji tələblərə cavab verəcək səmərəli və rəqabətqabiliyyətli müasir turizm kompleksləri yaratmaq və bu sahədə yeni iş yerlərinin açılmasını təmin etmək qeyri-neft sektorunun inkişafı istiqamətində qarşıda duran mühüm vəzifələrdəndir.

Azərbaycanda turizm sənayesinə yerli investisiya qoyuluşu mexanizmi fərqlidir. Ölkədə turizmin inkişafında dövlət büdcəsi imkanlarından istifadə olunması hazırkı dövrdə iri layihələr şəklində həyata keçirilir (bax şəkil 3). Həmçinin dövlətin bu sahəyə ayırdığı maliyyə vəsaitləri turizmin idarə olunmasında, beynəlxalq tədbirlərdə iştirakında ölkənin təbliği və reklamına, ehtiyatların qiymətləndirilməsinə də yönəldilir.




**Şək. 3.** 2010-2014-cü illərdə Azərbaycan Respublikasında turizm sahəsinə qoyulan daxili investisiyaların mln. manatla təsviri.

2014-cü ildə turizmin inkişafı ÜMM-in artımına 1354,2 mln manat (2,2%) tövhə vermişdir. 2015-ci ildə isə bu göstərici 1389,3 mln manata (2,6%) qədər qalxmışdır [13].

Dövlət investisiyalarının turizm sənayesinə yönəldilməsi aşağıdakı istiqamətlərdə aparılır: 1) kiçik və orta biznes sahəsinə büdcədən ayrılan vəsaitlərin yönəldilməsində turizm şirkətlərinin fəal iştirakının təmin olunması; 2) infrastruktur sahələrinin yeniləşdirilməsinə dövlət investisiyalarının artırılması; 3) dövlətin regionlara istiqamətləndirdiyi maliyyə vəsaitlərinin bir hissəsinin turizm sahəsinə yönəldilməsi; 4) dövlətin maliyyə və vergi siyasətində stimullaşdırıcı tədbirlərin fəal turizmlə məşğul olan, yeni yerləşmə müəssisələri, turist obyektləri tikən təşkilatlara yönəldilməsi; 5) rekreasiya ehtiyatlarının proqnozlaşdırılması və qiymətləndirilməsinə dövlət yardımlarının ayrılması.

**Dövlət Büdcəsi:** Azərbaycanda dövlət başçısının xüsusi sərəncamları əsasında reallaşdırılan "Regionların inkişafı ilə bağlı Dövlət Proqamları" ayrı-ayrı regionlarda həm turizm sahəsinin, həm də turizmlə dolayısı ilə bağlı olan sahələrin inkişafına investisiya qoyuluşunda xüsusi rol oynayır. Ümumiyyətlə, ölkədə büdcədən ayırmaların regionlar üzrə paylanması nəzərdə tutulmuşdur. Bu da regional turizmə yerli investisiyalar gətirib çıxarır. Məsələn, Azərbaycanın Lənkəran-Astara iqtisadi-coğrafi rayonuna dövlət büdcəsindən ayrılan vəsatlərin regionda turizmin inkişafına güclü təsiri olmuşdur. 2015-ci ildə Lənkəran-Astara iqtisadi rayonu üzrə ümumi xərclər 151,239 mln. manat olmuşdur ki, bunun da 102,610 mln. manatı dövlət büdcəsinindən ödənilən vəsaitlərdən ibarət olmuş və iqtisadi rayonun ümumi xərclərin 67,8%-ni təşkil etmişdir. Bu nəticə də onu deməyə imkan verir ki, iqtisadi rayon Dövlət Büdcəsindən birbaşa asılı vəziyyətdədir, iqtisadi rayon öz xərclərini belə qarşılayacaq iqtisadiyyata sahib deyil. Bölgənin investisiya imkanları müxtəlif təsərrüfat sahələri ilə yanaşı, son 10 ildə turizm sahələrinə yönəldilən kapital üç dəfədən çox artmışdır. Təhlil aparılan dövrdə iqtisadi rayonda təsərrüfat subyektlərinin sayı artmışdır. Belə ki, 2015-ci ilədək Lənkəran iqtisadi rayonu üzrə 2528 sahibkara 102,6 milyon manat güzəştli dövlət kreditləri verilib [3].

Rayonların abadlıq-quruculuq işlərinə yönəldilən vəsaitlərin əsas hissəsi büdcədən ayrılan kapitaldan ibarətdir. Buradan turizm sahəsinə vəsait birbaşa yönəldilmir. Yalnız infrastrukturun və abidələrin bərpasına büdcə vəsaitləri yönəldilir ki, bu da turizminin inkişafında alt bazis rolu oynayır.

***Lənkəran*** şəhərinin 2015-ci il üçün ümumi gəliri 16,9 mln manat olduğu halda, ümumi xərcləri 37,6 mln manat təşkil edir. Cari ilin 37,6 mln manat ümumi xərclərinin 20,7 mln manatını, yəni 55%-ni dövlət büdcəsindən ayrılmalar təşkil etmişdir. İnfrastruktur sahələrinin bərpası, kənd yollarının çəkilməsi və ucqar yaşayış məntəqələrində sosial infrastrukturun bərpası turizmin inkişafına təkan vermişdir [1].

***Astara*** rayonunun 2015-ci ildə ümumi gəlirləri 10,9 mln manat olduğu halda, cari il üçün xərcləri isə 19,7 mln manat təşkil edir. Rayonun xərcləri üçün Dövlət büdcəsindən ayrılmalar 8,8 mln manat təşkil etmişdir. Son illərdə Astara rayonunun sosial-iqtisadi həyatında əsaslı dəyişikliklər baş vermiş, əhalini narahat edən problemlərin həlli və infrastruktur layihələrinin yerinə yetirilməsi sahəsində mühüm tədbirlər həyata keçirilmişdir [1].

***Masallı*** rayonun ümumi xərcləri il ərzində 28,2 mln manat olmuşdur ki, bunun da 19,4 mln manatını dövlət büdcəsi tərəfindən ödəmələr təşkil etmişdir. Rayonun ümumi xərclərinin 68%-i Dövlət büdcəsindən edilən ödəmələr təşkil edir.

Masallı rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədilə 2013-cü il Prezidentinin ehtiyat fondundan abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün 2,0 mln manat, Uşaq İncəsənət Məktəbinin yeni binasının tikintisi üçün 2,0 mln manat, Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının tikintisi üçün 2,0 mln. manat ayrılmışdır [14].

***Lerik*** rayonunun 2015-ci il üçün ümumi gəlirləri 2,2 mln. manat, xərcləri isə 18,2 mln manat olmuşdur ki, bunun da 16,04 mln manatı dövlət büdsəsi hesabına qarşılanmışdır. Rayonda son illər infrastrukturun bərpası istiqamətində bir sıra tədbirlər görülmüşdür ki, bunun da əsas hissəsi dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına təşkil olunmuşdur [1].

2015-ci ildə ***Yardımlı*** rayonuna büdcədən ayrılan 12,7 mln manat hesabına xərcləri bağlanılmışdır. Bu da rayonun 14,89 mln manat ümumi xərclərinin 85%-ini təşkil edir. Mədəniyyət və Turizm Nazirliyinin büdcəsindən 143,6 min manatı bölgədə olan tarixi-memarlıq abidələrinin bərpasına yönəldilmişdir [1].

Dövlətin maliyə ehtiyatları investisiyalarının və ya güzəştli kreditlərin verilməsi də ölkədə turizmin inkişafına yönəldilir. Bu baxımdan turizm və iqtisadiyyatın digər sahələri üzrə təqdim olunan "Biznes Planlar" Müvəkkil kredit təşkilatları tərəfindən təhlili olunaraq 2003-cü ildən Sahibkarlığa Kömək Milli Fondu vasitəsilə güzəştli kreditlər ölkədə turizmin və iqtisadiyyatın inkişafına yönəldilir.

Lənkəran-Astara iqtisadi rayonunda turizmin inkişafında Sahibkarlığa Kömək Milli Fondu xətti respublikanın müxtəlif regionlarına, o cümlədən də tədqiq olunan bölgəyə verilən güzəştli kreditlər də öz müsbət rolunu oynamışdır.

**Sahibkarlığa Kömək Milli Fondundan** ayrılmış güzəştli kreditlər 2012-ci ildə 223,8 mln manat təşkil etmişdir ki, bu da Dövlət büdcəsindən bu məqsədlə ayrılan kredirlərin 12,8%-ni təşkil etmişdir. 2014-cü ildə bu rəqəm artaraq 295,0 mln manata çatmışdır ki, bunun da 145,0 mln manatı Fonda qaytarılan vəsaitlər hesabına, 150,0 mln manatı isə Dövlət Büdcəsindən ayrılan vəsaitlər hesabına həyata keçiriləcəkdir.




**Şək. 4.** 2014-cü ildə Azərbaycan Respublikası üzrə verilmiş güzəştli kreditlərin maliyyə mənbələri mln. manatla.

2014-cü il ərzində Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilməsi məqsədilə müvəkkil kredit

təşkilatlarına Lənkəran-Astara iqtisadi-coğrafi rayonu üzrə 601 sayda (10.4%) müraciətlər daxil olmuşdur. Bu müraciətlərin də 2014-cü il üçün toplam güzəştli kredit tələbatı Lənkəran iqtisadi rayonu üzrə 36313.3 min manat (11.2%) təşkil etmişdir. Cari il ərzində sahibkarlıq subyektlərinə güzəştli kredit verilməsi məqsədilə iqtisadi rayon üzrə Sahibkarlığa Kömək Milli Fonduna təqdim edilmiş 601 müraciətə baxılmış, onlardan 564-nə müsbət rəy verilmişdir. 2014-cü il ərzində müsbət rəy verilmiş investisiya layihələri üzrə Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun payı 29788.3 min manat (9.6%) olmuşdur.

**Kiçik sahibkarlıq subyektləri tərəfindən** ölkə üzrə əsas kapitala qoyulan investisiyalar 2014-cü ildə iqtisadiyyatın bütün sahələri üzrə cəmi 746,4 mln manat olmuşdur ki, bu da 2013-cü ildən 260,1 mln manat çoxluq təşkil edir.




**Şək. 5.** Ölkə üzrə kiçik sahibkarlıq subyektləri tərəfindən əsas kapitala qoyulan investisiyalar (iqtisadi fəaliyyət növləri üzrə, min manat).

2013-cü ilə nisbətən 2014-cü ildə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq; tikinti; ticarət, nəqliyyat vasitələrinin təmiri; turizm və ictimai iaşə müəssisələri və digər sahələr üzrə kiçik sahibrarlığa qoyulan investisiyalarda artım müşahidə olunur [2]. Aparılan investisiya siyasəti hesabına yerli sahibkarlıq subyektlərinə dövlət tərəfindən ayrılan vəsaitlər son beş ildə üç dəfədən

çox artmışdır. Bu vəsaitlərin əsas hissəsi istehsal sahəsinə yönəldilsə də, turizm sahəsində dinamik inkişafa nail olunmuşdur. 2013 və 2014-cü illərə görə turizm sahibkarlarının turizm sənayesində göstərdiyi xidmətlərin həcmi ölkənin orta göstəricilərindən aşağı olasa da, dinamikliyi təmin olunmuşdur. Turizm fəaliyyətinin gələcək hədəflərində ölkədə regionun turizm imkanlarından səmərəli istifadə etmək nəzərdə tutulmuşdur.

2014-cü ildə Kiçik sahibkarlıq subyektləri tərəfindən əsas kapitala qoyulan vəsaitin regionlar üzrə bölgüsünü nəzərdən keçirdikdən sonra ayıdın olur ki, Lənkəran-Astara iqtisadi rayonu bir tək Quba-Xaçmaz iqtisadi rayonundan öndə olaraq ölkənin digər iqtisadi rayonlarından kiçik sahibkarlar tərəfindən əsas kapitala qoyulan vəsaitə görə geri qalmışdır.

Aparılan təhlil və diqqət mərkəzinə çəkilən göstəricilər bilavsitə turizm sənayesi ilə bağlı olan, həm də regionların sosial-iqtisadi inkişafı məqsədilə həyata keçirilmiş və kələcəkdə reallaşdırılacaq Dövlət Proqramları ölkədə turizmin inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Bu proqramlar turizmlə birbaşa və dolayısı ilə əlaqəsi olan sahələrin irəli getməsinə, turist infrastrukturunun və turist xidmətinin yüksəlməsinə səbəb olur. Şübhəsiz ki, turizmin inkişafı yalnız Dövlət Proqramlarının həyata keçirilməsi yolu ilə getmir. Bölgələrə müxtəlif məqsədlərlə ayrılan büdcə vəsaitləri, sahibkarlığa dəstək fondlarının yardımları və başlıca olaraq bilavasitə turizmə qoyulan investisiyalar ümumilikdə turizmin inkişafında vacib rol oynayır.

**Nəticə**. Azərbaycanda həm neft sektoruna, həm də qeyri-neft sektoruna xarici investisiyalar qoyurlar. Qeyri-neft sektorunda fəaliyyət göstərən birgə və xarici investorları cəlb edən əsas sahələr sənaye, tikinti, nəqliyyat və ticarətdir. Lakin təəssüfləndirici haldır ki, Azərbaycanda mövcud olan turizm potensialı ilə müqayisədə, xarici investisiyaya qoyulan sahələrin içərisində turizm sahəsi yoxdur.

Xarici investorlar tərəfindən qoyulan investisiyalar nəticəsində Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun infrastrukturu qismən yaxşılaşmışdır ki, bu da dolayısı ilə rayona gələn turistlərin sayına təsir göstərmişdir. Bildiyimiz kimi istənilən turizm regionunun infrastrukturu bir başa turistlərin regiona səfər etmələrinə öz təsirini göstərir.

2015-ci ildə Lənkəran-Astara iqtisadi rayonu üzrə ümumi xərclər 151,239 mln. manat olmuşdur ki, bunun da 102,610 mln. manatı dövlət büdcəsindən ödənilən vəsaitlərdən ibarət olmuş və iqtisadi rayonun ümumi xərclərin 67,8%-ni təşkil etmişdir. Bu nəticə də onu deməyə imkan verir ki, iqtisadi rayon Dövlət Büdcəsindən birbaşa asılı vəziyyətdədir, iqtisadi rayon öz xərclərini belə qarşılayacaq iqtisadiyyata sahib deyil.

Aparılan investisiya siyasəti hesabına yerli sahibkarlıq subyektlərinə dövlət tərəfindən ayrılan vəsaitlər son beş ildə üç dəfədən çox artmışdır. Bu vəsaitlərin əsas hissəsi istehsal sahəsinə yönəldilsə də, turizm sahəsində dinamik inkişafa nail olunmuşdur. 2013 və 2014-cü illərə görə turizm sahibkar-

larının turizm sənayesində göstərdiyi xidmətlərin həcmi ölkənin orta göstəricilərindən aşağı olasa da, dinamikliyi təmin olunmuşdur.

Respublika regionlarının sosial-iqtisadi inkişafında aparıcı xətti təşkil edən Dövlət Proqramları çərçivəsində Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda aparılmış və aparılan işlər regionun turizm sənayesinin inkişafına daha çox dolayısı ilə təsir göstərir. Turizmin inkişafında əsas yük bilavasitə bu sahəyə qoyulan daxili sərmayələrin, dövlət büdcəsindən ayırmaların payına düşür. Təhlil göstərir ki, dövlət büdcəsindən ayrılan vəsaitlərin, sahibkarlığa dəstək fondunun müxtəlif layihələrin həyata keçirilməsi üçün verdiyi kreditlərin, həmçinin kiçik sahibkarlıq subyektlərinin bir sıra yeni müəssisələrin yaradılması məqsədilə qoyduqları investisiyalar bölgə turizmi üçün birbaşa və dolayısı ilə yeni inkişaf perspektivləri açmışdır.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının 2015-ci ilin dövlər və icmal büdcələri üzrə layihələrin təqdimatı. Bakı, 2015, 61 s.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycanda kiçik sahibkarlıq, statistik məcmuə, Bakı, 2015, 79 s.
3. Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi Sahibkarlara Kömək Milli Fondu, 2014 İllik hesabat. 78 s.
4. İmrani Z.T. Azərbaycan Respublikasının investisiya siyasəti və onun perspektiv istiqamətləri // Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri, Coğrafiya və təbii resurslar, 2015, №1, s. 88-91.
5. İmrani Z.T. Azərbaycan Respublikasının investisiya mühitinin təhlili, Azərbaycan Coğrafiya Cəmiyyətinin elmi əsərləri. XIV cild. Bakı, 2009, s. 151-155.
6. Məcidov N.S. Qloballaşma və xarici investisiyalar, Bakı, 2006, 288 səh.
7. İlker Parasız. Makro Ekonomi, 7-ci neşr, Bursa: Ezgi Kitabevi Yayınları, 1998, 32 s.
8. Tevfik Güngör Uras, Türkiye’de Yabancı Sermaye Yatırımları, İstanbul, Formül Matbaası, 1979, 27 s.
9. Dargahov V.S., Karimov.R.N. Investment Opportunities of Tourism Industry in Azerbaijan and its Regions. European International Journal of Science and Technology Birmingham, 2014, p.165-172
10. Paul A. Samuelson, William D. Nordhaus, Economics, 6-c ı nəşr, New York, Irwin-McGrawHill, 1998, 397 s.
11. Tourism in Azerbaijan, Azpromo, 2013, 36 s.
12. World Travel and Tourism Councul. 2014 Issue. 20 s.
13. World Travel and Tourism Council” Economic Impact 2015, Azerbaijan. 24 s.
14. http://www.president.az/
15. www.maliyye.gov.az

## ИНВЕСТИЦИИ, ВЛИЯЮЩИЕ НА РАЗВИТИЕ ТУРИЗМА В ЛЯНКАРАНЬ-АСТАРИНСКОМ ЭКОНОМИКО-ГЕОГРАФИЧЕСКОМ РАЙОНЕ

**С.А.ТАЛЫБОВ**

**РЕЗЮМЕ**

В статье рассмотрены вопросы инвестицонных вкладов в туризм по Лянкарань-Астаринскому экономико-географическому району Азербайджана. Известно, что общие расходы экономического района зависят от госбюджета. Раскрываются механизмы внутренних и зарубежных инвестиционных вкладов в отрасль туризма Азербайджана, также рассматриваются инвестиционные вклады на прямую или косвенно влияющие на развитие туризма Лянкарань-Астаринском экономико-географическом районе.

**Ключевые слова:** туризм, региональный туризм, инвестиции, иностранные инвестиции, внутренние инвестиции.

## INVESTITIONS THAT AFFECT THE DEVELOPMENT OF TOURISM IN LANKARAN-ASTARA ECONOMICAL-GEOGRAPHICAL REGION

**S.A.TALIBOV**

**SUMMARY**

The article studies investitions on tourism in Lankaran- Astara tourism region of the Azerbaijan Republic. The dependence of total expenses of the economic region from State Budget was determined. The appliance of foreign and domestic investitions on tourism has been explained and direct and indirect effects of investitions to the development of tourism in Lankaran-Astara economic-geographic region were reserched in the article.

**Key words:** tourism, regional tourism, investment, foreign investment, domestic investment.

*Redaksiyaya daxil oldu: 06.10.2015-ci il*
*Çapa imzalandı: 05.02.2016-cı il*